

*Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# “Biz milli birliyi, həmrəyliyi təmin etməklə qələbəyə nail olduq”

***Ermənistanın sentyabrın 27-də növbəti hərbi təxribatından sonra Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatı noyabrın 10-da tarixi qələbəmizlə başa çatdı. Həmin gün Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanan birgə bəyanatla silahlı qüvvələrimizin hərbi cəbhədəki möhtəşəm qələbəsi diplomatik sahədə də rəsmiləşdirildi. Beləliklə, xalqımızın 30 il davam edən torpaq həsrətinə son qoyuldu, ədalət bərpa olundu. Eyni zamanda, Prezident, Ali Baş Komandan İlham Əliyev qalib sərkərdə, Azərbaycan Ordusu ən güclü ordu, xalqımız isə məğrur, yenilməz xalq olduğunu bir daha təsdiqlədi.***

Bu möhtəşəm uğuru son 25 il ərzində qalibiyyətin beynəlxalq hüquqi normativ bazasının formalaşdırılması, informasiya blokadasının yarılması, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması, milli iqtisadiyyatın gücləndirilməsi, ordu quruculuğunda həyata keçirilən islahatlar, qəhrəman zabit və əsgərlərimizin şücaəti, ən əsası isə Ali Baş Komandan İlham Əliyevin əzmi, qətiyyəti şərtləndirdi.

İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsində dövlətimizin başçısının da dəfələrlə vurğuladığı kimi, bizim birlikdə güclü olmağımız önəmli rol oynadı. Başqa sözlə, xalq-Prezident-ordu vəhdəti ərazi bütövlüyümüzün bərpa olunmasında, torpaqlarımızın işğaldan azad edilməsində mühüm əhəmiyyət daşıdı.

Azərbaycan Prezidenti Şuşada bayram tonqalı ətrafındakı tarixi müraciətində torpaqlarımızın işğaldan azad edilməsi üçün ötən illər ərzində güc toplanıldığını, ciddi hazırlıq işləri aparıldığını, ölkəmizin inkişafının təmin olunduğunu, xalqımızın birliyinin reallaşdırıldığını bir daha vurğulayıb: “Vətəndaş müharibəsindən çıxmış ölkə üçün, xalq üçün bu, o qədər də asan məsələ deyildi. Vətəndaş müharibəsindən sonra bu günə qədər ölkədə gedən proseslər xalqımızı vahid ideya uğrunda, vahid amal uğrunda, torpaqlarımızın azad edilməsi amalı uğrunda birləşdirdi. Biz bu milli birliyi, milli həmrəyliyi təmin edə bildik. Bu, olmasa idi, bu qələbə də olmayacaqdı”.

Ötən illər ərzində dövlətimizin başçısının daim xalqla bir yerdə olması, milli maraqları ifadə etməsi, verilən tapşırıqların icrası ilə yerində maraqlanması, dövlət xidmətlərinin keyfiyyətinin və əlçatarlılığının daim artırılması, ölkə rəhbərinin tapşırığı ilə mərkəzi hakimiyyət qurumları nümayəndələri rəhbərlərinin regionlarda mütəmadi keçirdikləri görüşlər, ordu quruculuğu və düzgün kommunikasiya siyasəti xalqın dövlət institutlarına etimadını yüksəltdi. Bir sözlə, bu illər ərzində qarşıya qoyulan məqsəd və hədəflərə doğru yeni, inamlı addımlar atıldı. Nəticədə, respublikamızın beynəlxalq imici daha da yüksəldi, qlobalmiqyaslı uğurlar qazanıldı, həyatın bütün sahələrində dinamik inkişaf davam etdirildi.



Bəli dövlət başçısının ölkəmizə rəhbərlik etdiyi 17 il ərzində Azərbaycan bu qələbəyə, necə deyərlər, addım-addım yaxınlaşırdı. Münaqişənin davam etdiyi illərdə cənab Prezident çox böyük uzaqgörənlik və təmkinlə həm diplomatik, həm də ordu quruculuğunda təxirəsalınmaz tədbirlər reallaşdırırdı. İştirakçısı olduğu ən yüksək beynəlxalq tədbirlərin tribunalarından Qarabağ həqiqətlərini dünyaya bəyan edir, aparıcı dövlətlərin rəhbərlərinin diqqətinə Qarabağın ölkəmizin əzəli torpağı olduğunu və işğaldan azad edilməsinin labüdlüyünü çatdırırdı. Eyni zamanda, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, ən müasir hərbi texnika ilə təchizatının təmin edilməsi üçün səylər göstərirdi.

Azərbaycan Prezidenti bununla bağlı Şuşada bayram tonqalı ətrafında müraciətində deyib: “Biz Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq müstəvidə dünya ictimaiyyətinə çatdırmalı idik və çatdıra bildik. Beynəlxalq təşkilatlarda fəal işləyirdik və bizə sərf edən, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən, ona əsaslanan vacib qərar-qətnamələri qəbul etdirə bildik. Bu, qələbəmizin hüquqi əsası idi, haqq-ədalətin bərpasının hüquqi əsası idi. Biz iqtisadi güc toplamalı idik və topladıq. Son illər ərzində Azərbaycan qədər sürətlə inkişaf edən ölkə bəlkə də dünyada yoxdur. Biz hərbi güc toplamalı idik və bu istiqamət birinci dərəcəli vəzifə idi. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə hərbi xərclər hər zaman birinci yerdə idi və bunu mən deyirdim, bəyan edirdim ki, biz hərbi xərclərimizi bundan sonra da artırmalıyıq. Biz müharibəyə hazırlaşmalıyıq, hazırlaşırıq. Açıq deyirdim bütün dünyaya və deyirdim ki, əgər düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz düşməni qovacağıq. Belə də oldu...”.

Ümumiyyətlə, Vətən müharibəsində qələbəmizin təməlində möhtərəm dövlət başçımızın göstərdiyi əzm, qətiyyət, silahlı qüvvələrimizin güc-qüdrəti nə qədər mühüm əhəmiyyətə malik idisə, xalq-Prezident-ordu vəhdəti, birliyi də bir o qədər önəm daşıyırdı.

Yeri gəlmişkən, müharibənin davam etdiyi günlərdə xarici ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə, telekanallarına verdiyi müsahibələri ilə də respublikamızın haqq səsini dünya ictimaiyyətinə tutarlı arqumentlərlə çatdırır, həmçinin Azərbaycanın beynəlxalq hüququn tələblərinə uyğun öz torpaqlarında savaş apardığını sübut etməklə ermənipərəst xarici dairələrin döyüşlərin gedişinə müdaxilələrinin qarşısını böyük məharətlə alırdı.

Hərbi əməliyyatların gedişində Ali Baş Komandan İlham Əliyevin müntəzəm olaraq çatdırdığı qələbə xəbərləri, işğaldan azad olunan yaşayış məntəqələri, düşmənin məhv edilən canlı qüvvəsi və hərbi texnikası barədə məlumatları ölkəmizin hər bir vətəndaşında qürur, fərəh hissi doğururdu, xalqın dövlətimizin başçısına, rəşadətli ordumuza inamını gücləndirirdi.

*(ardı 2-ci səhifədə)*

Xalq qəzeti 2021.- 4 aprel.- S.1;2.

# "Biz milli birliyi, həmrəyliyi təmin etməklə qələbəyə nail olduq"

*(əvvəli 1-ci səhifədə)*

Vətən müharibəsi Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik və uzaqgörən siyasətçi olmaqla yanaşı, həm də mahir sərkərdəlik bacarığını, çətin, ağır şəraitdə düzgün qərar vermək istedadını bir daha bütün dünyaya nümayişi etdirdi. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin birgə bəyanat imzaladıqları gün dövlətimizin başçısı xalqa müraciətində məhz bu məsələni xüsusi vurğulayaraq, bildirdi ki, "Biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü göstərmişik, müstəqilliyimizi göstərmişik. Gün gələcək müharibə dövrünün ictimaiyyətə çatdırıla bilməcək bəzi məqamları, yəqin ki, açıqlanacaq. Ola bilsin ki, mən də hansısa məsələnin üstündən o pərdəni götürə bilərəm. Onda hər kəs görəcək ki, biz nə qədər böyük sınaqlardan çıxdıq, nə qədər böyük təzyiqlərə məruz qaldıq. Demək olar ki, gündəlik rejimdə, dayanın, dayanın, dayanın, dayanın. Amma biz qabağa getdik. Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi. Çünki mən bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq".

Erməni hərbi birləşmələri üzərində qazanılan tarixi qələbədən sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev vaxtaşırı işğaldan azad edilən ərazilərə səfərlər etməklə "Qarabağ Azərbaycandır və nida" ifadəsinin müəllifi kimi bir daha xalqa verdiyi bütün vədlərə sadiqliyini göstərir. Bununla da siyasətdə, diplomatiyada və hərbi strategiyada dövlətimizin başçısının adı bu zəfərin müəllifi kimi tarixə əbədi yazılır.

Otuz il ərzində Qarabağ və ətraf əraziləri işğal altında saxlayan düşmən həmin torpaqlarda nəinki daşı daş üstə qoyub, əksinə, evləri, infrastrukturu dağıdıb, yeraltı və yerüstü sərvətləri talan edib.

Hazırda o yerlərdə quruculuq tədbirləri həyata keçirilir, infrastruktur layihələri reallaşdırılır. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları tərtib olunur. İlk növbədə, Ağdam şəhərinin və bu rayonun bütövlükdə baş planı hazırlanır. Bütün bunlardan sonra isə sosial obyektlərin, inzibati binaların inşası, nəhayət, məskunlaşmaya başlanılması nəzərdə tutulur.

Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərimizə səfərləri zamanı bərpa-quruculuq işləri ilə ciddi şəkildə maraqlanır, dəyərli tövsiyələrini verir. Qarabağın dirçəldilməsi istiqamətində reallaşdırılan bütün layihələr isə, məsələn, Füzuli–Şuşa yolunun inşası, Şuşanın bərpası Azərbaycan xalqının və Azərbaycan Prezidentinin yaradıcı ruhunun parlaq təzahürü kimi diqqət çəkir. Bu baxımdan dövlətimizin başçısının Şuşaya çəkilən magistral yolu "Zəfər yolu" adlandırması da təsadüfi deyil. Çünki bu yolboyu torpaqların hər qarışına şəhid və qazilərimizin qanı qarışıb. Başqa sözlə, qəhrəman Azərbaycan Ordusu döyüşərək, şəhidlər verərək Şuşanı düşməndən azad edib, zəfər qazanıb. Odur ki, həmin yol Azərbaycan tarixində həm də şanlı qələbəyə aparan müqəddəs yol kimi qalacaq.

Hazırda Şuşa qalasının bərpasına başlanılması da mühüm tarixi hadisə kimi diqqət çəkir. Yeri gəlmişkən, bərpa prosesinə 20-dən çox mütəxəssis cəlb olunub.

Qeyd edək ki, Qarabağ xanı Pənahəli xan 1750-ci ildə Şuşa qalasının tikintisinə qərar verib və Qarabağ xanlığının mərkəzi bura köçürülüb. Qala sonra uzun müddət mənbələrdə Pənahabad adlandırılıb.

Şuşa qalası Azərbaycan memarlığının ən gözəl incilərindən biridir. Qala Arran memarlıq məktəbi üslubunda inşa edilib. Qalanın tikilməsində əsasən yerli daşlardan və əhəng-yumurta sarısı qarışığından istifadə edilib. Qalanın üç qapısı var. Onlardan Gəncə qapısı öz yüksək memarlıq xüsusiyyətləri ilə seçilir. Qala dairəvi mühafizə bürclərinə malikdir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***